UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2024.2.11

**Aydın Əlizadə**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya institutunun*
*"Azərbaycanın VII-XIV əsrlər tarixi" şöbəsinin elmi işçisi*
*Azərbaycan*
*aydin.aleskeroglu@gmail.com*

# ERKƏN ƏRƏB XİLAFƏTİ DÖVRÜ AZƏRBAYCAN-İRAQ BAĞLILIĞI HAQQINDA

***Açar sözlər:*** *Azərbaycan, Parfiya, Sasanilər, Bizans, Mesopotamiya, Betnəhreyn, Beynəlnəhreyn, Ərəb Xilafəti, İraq, əl Cəzirə*

Azərbaycan-İraq əlaqələrinin tarixi öz mərhələlərinə müvafiq yaxın keçmişi addayıb erkən orta əsrlərə doğru uzanaraq, zaman etibarı ilə fasiləli bağlantılarla qədim dövrlərə gedib çıxan bir özəlliyə malikdir. Azərbaycanın tarixinə nəzər saldıqda torpaqlarında yaranmış ilk qədim dövlətlərindən Manna və Midiyanın sıx əlaqələri öncə tarixi ərazilərinə aid Urmiya gölü ətrafı bölgənin cənub-qərb sərhədlərinə bilavasitə təmas edən Mesopotamiya dövlətlərinə məxsus mixi yazılarda əks olunmağa başlamışdır. Qədim dövrdən başlayaraq Azərbaycanın cənub-qərb tarixi hüdudlarının Dəclə çayının yuxarı axarlarının şərq sahillərinə kimi çatması bu bölgələrdəki əhalinin Dəclə-Fərat çayları arası ərazilərin şimal-şərqindəki əhali ilə sabit təmaslarını şərtləndirmişdir. Bu təmasların davamlılığını İraq şimalının yer və çay adları da təsdiq edir. Şimali İraqın Tərtər(Sərsər) çayı və vadisi, Raniyə ovalığı, Şirvan və Dərbənd məntəqələri belə adların az bir nümunəsidir. Əsrlər sonra artıq Selevklər hakimiyyətinin tənəzzülə başladığı e.ə. II əsrdən etibarən Mesopotamiyadakı Osroena, Adiabena kimi kiçik, əhalisi arami-ərəb qarışımından ibarət siyasi vahidlər ümumən Azərbaycan ərazisində mövcud dövlətlərin də aid olduğu Parfiyanın tərkibindəki 18 yarımmüstəqil şahlıqlardan (5, II, s.423) yalnız ikisi idi. Yarı ərəb və arami mənşəli Osroena və Adiabena hökmdarları Əbğar-Ukkama (Osroena) və Əbdüssar (Adiabena) tərəfindən öz adlarına zərb etdirdikləri sikkələr bu hökmdarların Parfiya asılılığından azadlığa çıxması anlamına gəlməsə də, yarım müstəqil olmalarına dəlalət edən atributlardır. Sonralar sasanilərin qüvvətli hökmdarları zamanında müəyyən qədər müyəssər olduqları mərkəzləşdirilmiş və əsası canişinlik üzərində düzənlənən idarəçiliyindən fərqli, Parfiya imperiyası daxilindəki kiçik şahlıqlardan Adiabenanın e.ə. II əsrin 40-cı illərindən – b.e. III əsrinin birinci rübünə qədər mövcud olduğu, Böyük və Kiçik Zəb çayları arasında yerləşdiyi ərazisinin bütün şərq hüdudu Atropatena dövlətinin mövcudluğu ərzində bir-biri ilə həmsərhəd olduğundan Mesopotamiyadakı bu kiçik dövlətdə əhalinin üçdə bir hissəsini atropatenalılar təşkil etmişdi (6, s.84). Mesopotamiyada yaranmış Osroena və Adiabena kimi Parfiya asılılığında olan yarımmüstəqil dövlətlərin əhalisindən aramilər xristianlığın Albaniyada yayılmasında nəzərə çarpacaq missianerlik fəaliyyəti göstərmişdilər (13, s.5, 257; 14, s.12,13). Paytaxtının adı ərəbcə "Urha-"dan törəyən Urfa şəhərinin yerləşdiyi Osroena xristianlığın rəsmi olaraq qəbul edildiyi ilk dövlət idi (18, s.12, 186, 187). Ərəb mənbələrinə müraciət edildikdə Azərbaycanın ucqar cənub-qərb hüdudlarının uzanıb çatdığı Dəclə çayının yuxarı axarındakı şərq sahili torpaqlara həmsərhəd İraqın şimal bölgəsində ərəb qəbilələrinin məskunlaşma tarixi daha qədim dövrlərə təsadüf edir. Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri (838-923) İraqda ərəb qəbilələrinin məskunlaşmağa başlamasını ibn Hişam əl Kəlbiyə (vəf. H 204\m 819) isnadla Babil hökmdarı Buxtunnəsr (e.ə. 605-562) zamanında Ənbar və Hirə ətrafı məntəqələrə köçürülən ərəblərlə əlaqələndirir (24, I, s.291-293). Fərat və Dəclə çaylararası əraziyə, xüsusən də Azərbaycan torpaqlarından Urmiya gölü ətrafı bölgənin cənub-qərbi ilə

həmsərhəd şimal-şərq məntəqələrə aramilərdən sonra ərəb qəbilələrinin erkən sasanilər dövründə də davam edən köçləri ilk nəzərdə vətənmizin erkən orta əsrlər tarixinə aid olmayan mövzu kimi görünsə də, əslində məxəzlər dolayı tərzlə bunun arxasında, İraqda ərəb qəbilələrinin yaratdığı mühitdə bizim ərazilər haqqındakı anlayışın təsəvvürlərindəki çox da uzaq torpaqlar sırasına aid olmadığını çatdırır. Təbəri Hişam ibn Məhəmməd əl Kəlbiyə isnadən tarixi dönəmlərdən olan Müluku-l-Təvaif zamanlarının əvvəlindən (Parfiya dövrü -Ə.A.) sasani I Ərdəşirin (224-241) hakimiyyətinə kimi və daha sonralar Mesopotamiya ərazisinə köçmək seçiminin davamını canlı saxlayan ərəb qəbilələrinin hərəkətliliyi haqqında da məlumat çatdırmışdır (26, I, s. 609-612). Mesopotamiya ərazisi qədim dövrdən bir neçə arami köç dalğasına məruz qaldığı üçün hətta sasani dövrünün sonu və ərəb ordularının yürüşləri ərəfəsində əhalisinin böyük bir hissəsini xristianlığı qəbul etmiş olan (süryanilər) və bütpərəstlikdə qalan aramilər təmsil edirdilər (18, s.7-8). Bununla bərabər Mesopotamiyada ərəblər və aramilərlə yanaşı əhalinin bir qismini əl Hadr nümunəsindəki kimi, ordugah-qala şəhərlərdə olan parfiyalılar da təmsil etmişdilər (34, IV, s.116). Digər cəhətdən xristianlığı qəbul etmiş aramilər olan suriyanilərin savadlılığı ilə fəal ticarət əlaqələri üzərində qurulmuş ətraf qonşular haqqındakı məlumatlılığı Azərbaycanı da ehtiva etdiyindən Muluku-l-Təvaif dönəmindən etibarən Mesopotamiya torpaqlarında karvanların muzdlu müşayəti ilə məşğul olan ərəb qəbilələri (16, s. 13) mühiti üçün vətənmizə aid ilkin təsəvvürlərin yaranmasında müəyyən əhəmiyyət kəsb etmişdir. Ərəb qəbilələrindən yüngül süvari qüvvə kimi istifadə olunması sasanilər üçün "miras"-a bənzər təcrübə nümunəsi halında Roma-Parfiya müharibələri dövründəki siyasi ənənənin davamı idi. Urmiya gölü ətrafı bölgənin cənub-qərbinə təmas edən Dəclə çayının yuxarı axarı əraziləri Bizans-Sasani müharibələrinin ehtiva etdiyi hərb meydanlarından biri idi (11, s. 49). Şimali Ərəbistan qəbilələrinin Rəbiə birliyinə məxsus qollar Bəkr, Vail, Təqlib, Əbdülqeys, Nəmr, Şeyban, Hənifə, Əsəd kimi qəbilələrlə təmsil olunmağına baxmayaraq onların bir qismi İraqda Ləhmilərin tabeliyi altında sasanilərə xidmət etmiş, digərləri isə (Təqlib, Nəmr) Bizansın səfində yer almışdılar.Təbəri Seyf ibn Ömər ət-Təmiminin (vəf. H 180\m 796 il) əsərində Məhəmməd ibn Hüzeyfə ibn əl Yəmanidən (vəf. 36\656) ötürülən xəbərə isnadla qeyd edir ki, Cahiliyyə dövründə ərəblərdən ibarət heç bir toplum rəbiəlilərin qarşısında olan qorxu səbəbindən sasani təsir dairəsindəki ərazilərə basqın düzənləməyə cəsarət göstərmirdi (25, IV, s. 87). Beləliklə Mesopotamiyanın ərəb qəbilələri birliyi həm Parfiya,həm də sasanilərin hakimiyyəti dövründə şimal ərəblərinin sonradan fəthlər ərəfəsində İraq adını verdiyi aralıq ərazinin vaxtı ilə Roma və ardınca Bizans qarşısına çıxarılan ön süvari-hərbi qüvvəsini təmsil etmişdilər.Rəbiəlilərin birliyinə aid xristian qəbilələr Xilafət ordularına müqavimət göstərmiş olsalar da, aralarındakı birliklərin bir çoxu tədricən vahid mənşəyi nəzərə alıb yürüşlərə qatılaraq bələdçilik və kəşfiyyat işini öhdələrinə qəbul etmişdilər (36, s. 81-88). Mesopotamiya Xilafət tərəfindən tutulduqdan sonra müsəlman ordusunun Azərbaycana edilmiş kəşfiyyat xüsusiyyətinə malik ilk yürüşü hicri 18-ci ildə (639) Mədain valisi Hüzeyfə ibn əl Yəməninin (36, I, s. 334-335) rəhbərliyi ilə Cəzirə ərazisindən Urmiya gölü ətrafı bölgəyə hücumla həyata keçirilmişdir (3, s.19-20; 19, s.455-456). Bu hücum ərəfəsində isə xəlifə Ömər tərəfindən Mədainə (29, s. 588) və Dəclə çayının hər iki sahili boyu bütün suvarılan torpaqlara və arxasında olan ərazilərə (و وليت ما سقت دجلة و ما وراءها) (29, s. 139) məhz Hüzeyfə ibn əl Yəman vali təyin edilmişdi. Onun xəlifə Ömər tərəfindən Mədain valisi təyin edilməsi bütün İraq ərazisi ilə yanaşı, həmsərhəd torpaqlarda da baş verə biləcəklərdən məsuliyyət daşıması anlamını verirdi. Hüzeyfə ibn əl Yəmənin səlahiyyəti Mədain valiliyi adıyla məlum olsa da, bunun arxasında orduların irəliləyişindən öncə daim xəlifə Öməri irəlidəki ərazilərin hərbi qüvvələri barədə məlumatlı saxladığı, xəlifənin bütün Xilafətdəki valilərin fəaliyyəti ilə əlaqəli olan marağını nəzərə alaraq bu istiqamətdə də ona məlumatlar çatdırması, nəhayət Məhəmməd peyğəmbərin yaşadığı dövrdən başlayaraq "Sahibu-s-Sır" ləqəbini ölümünə kimi daşıması onun bu xüsusda böyük bir şəbəkəyə rəhbərlik etmiş olmasını düşünməyə əsas verir. Ərəb Xilafəti qurulandan etibarən Hüzeyfə ibn əl Yəmənini hərbi əməliyyatlardan uzaq heç bir bölgədə idarəçiliklə yük-

lənən görmürük. Ömrünün sonuna kimi Mədain valiliyinin (37,VIII, s. 137) icrası ilə yanaşı Hüzeyfə ibn əl Yəmənin Nəhavənd döyüşündən sonra 642-ci ilin sonu üçün xəlifə Ömər tərəfindən ilk dəfə və sonra Salman ibn Rəbiə əl Bəxilinin mübahisəli təxminən 650-653 illər arasındakı ölüm tarixi ardından, xəlifə Osman tərəfindən ikinci dəfə, qısa müddətlərə olsa da, Azərbaycanda vali təyin edilməsi əslində Azərbaycan ilə İraqdakı vəzifənin birləşdirilməsi anlamını vermiş olduğu Xilafət idarəçiliyindəki yaranmış ən erkən belə hallardan biri idi. Ərəb qəbilələrinin Azərbaycan və əhalisi kimi türklər haqqında ən erkən məlumatlılığ nümunəsindən birinin mövzusu da məhz yazı mədəniyyətinə malik aramilərin də məskun olduğu İraq Hirəsi mühitində yaranaraq (32, XXXVIII, s. 202), bizim dövrümüzə Vəhb ibn Münəbbih əl Yəməninin (vəf.110\728) "Kitab ət-Tican fi muluk Himyər" adlı əsərinə hissə müəllifinin ismiylə daxil etdiyi "Əxbaru Ubeyd bin Şəriyə əl Curhumi" bölməsində gəlib çatmışdır (39, s. 416-417; 9, s. 5; 1, s.146-148). Qədim Curhum qəbiləsinin sonunculardan sayılmış Ubeyd ibn Şəriyə xəlifə Müaviyə ilə keçirilmiş görüşündə onun Azərbaycan haqqındakı təsəvvürünü genişlətmişdi (1,s.146). Xilafətdən əvvəl də, Azərbaycan əraziləri hər iki imperiya ordularının yürüş və hərbi əməliyyatları üçün vaz keçilməz, mühüm əhəmiyyəti ilə öndə olan əsas strateji hədəf sayılmışdı.Tarixi Azərbaycan ərazilərinin çatdığı Dəclə çayı yuxarı axarlarının şərq sahili və öz qərbi ilə ona birləşən Urmiya ətrafı bölgə sasanilər hakimiyyətinin ilk çağlarından etibarən imperiyanın diqqət mərkəzində olmuşdur. Urmiya bölgəsinin Şiz alov məbədi hakimiyyətə gələn şahların ənənəyə uyğun ilk ziyarət ünvanı idi. Parfiya dövründən qalma siyasətin davamı kimi, imperiya paytaxtının Mesopotamiyada, Ktesifonda saxlanılması və Azərbaycanda Şiz alov məbədi əhəmiyyətinin öndə tutulması parfiyalı və sasani şahlarının qərb istiqamətində aldığı siyasi tədbirlərin tərkib hissəsi idi. Sasanilərin Asuristan adlandırdığı Mesopotamiya paytaxt Ktesifonla önə çəkilirdisə, Azərbaycanın əhəmiyyətini nəzərə çarpdıran xüsusiyyətlərdən biri də, ərazisində dinin yayılıb möhkəmlənməsi uğrunda Şiz alov məbədinin məhz (bilərəkdən-Ə.A.) şahların ziyarəti üçün ayrılmasında idi (4, s. 90). IX əsr müəllifi Əbulqasım Ubeydullah ibn Abdullah ibn Xordadbeh (təxm.820-892) sasani şahlarının İraqdan Azərbaycana aparan Mədain-Şiz ziyarət yolunun Şəhrəzura qədər olan qisminə əvvəllər "niməzrah"-yolun yarısı söyləndiyini (نصف الطريق من المدائن الي بيت نار الشيز) qeyd etmişdir (33,s.19). Sasanilər dövründə Parfiya zamanının qalıqları sayılan kiçik şahlıqların sülalə nümayəndələrindən bəziləri xidmətlərinə görə İraqdakı kimi bölgə canişininə çevrilmişdilər. Təbərinin tarixə həsr etdiyi çoxcildlik əsərində, sasanilərin Fərat və Dəclə çayları arası ərazilərin idarəsi ilə Azərbaycanın idarəsi arasında müəyyən dolayı bağlantıların olmasına işarə edən məlumat da mövcuddur. Təbəri I Xosrov Ənuşirvanın hakimiyyətə gəldiyi ilk çağlarda sasani dövlətinin bölgə idarəçiləri olan canişinlərə yazdığı məktublardan birinin, Azərbaycan, Ərminiyyə və həmsərhəd ərazilərin «payqosban» (فاذوسبان اذربيجان وارمينية و حيزها واري ابن النخيرجان) Vari ibn Nəxircana ünvanlanan əmrlərin məzmunundan bəhs edir (27, II, s. 98). Sasani şahlarının kitabələrində ərazi anlamında keçən "padqos" termini süryani və Bizans mənbələri əsasında Bizans-Sasani münasibətlərinin tədqiqatçısı N.V.Piqulevskayaya görə "kust"-dan daha böyük inzibati vahidi bildirirdi ki, özündə bir-neçə "kustu" birləşdirirdi (17, s. 171). Bu halda padqosbanın (فاذوسبان) müəyyən məsələlərdə səlahiyyəti həm Şimal, həm də Qərb satraplığına şamil olunurdu. Erkən orta əsrlərin ərəb müəllifləri üçün sasani dövründəki Qərb satraplığı sayılan Mesopotamiya –"Xarbaran" ilə Azərbaycan sərhədlərini təyin etmək Bizans-İran müharibələrindən sonra sərhədlərin bəzi hallarda şərti sayılmasına səbəb verən müəyyən bölgələrin tez-tez sahibini dəyişməsi ilə əlaqədar çətin məsələlərdən biri idi. Məsələn, əl Cibal bölgəsinin (keçmiş Midiya ərazisinin bir hissəsi-Ə. A.)"bərid" (qasidlər və xəbərləşmə təşkilatı-Ə. A.) təsisatındakı rəhbər "sahib əl bərid" mövqeyinə çatmış ibn Xordadbeh (10, s.10-11) bir tərəfdən onun dövründə İraqın şərqindəki Masabazan, Mihricanqazaq və Hulvanın əl Cibala aid edildiyini yazır, digər tərəfdən isə sadalananların sasanilər dövründə ayrıca olaraq Azərbaycanla vahid əlahiddə bir vergi kadastırında sayıldığını vurğulayır (33,s.20). Ulu babası Vadihin Azərbaycan və Ərməniyyədə vali olan{xəlifə Mənsur

(136\754-158\775) dövründə} IX əsr müəllifi Əhməd ibn ƏbuYəqub ibn Cəfər əl Yəqubinin (vəf.897) məlumatı üzrə isə Dinavər, Şəhrəzur, Masabazan, Mihricanqazaq və hətta Hulvan ilə Samqan Azərbaycan ispahbədliyinin tərkibində olan bölgələrdən idi (41, s. 176). Bizans qaynaqlarına görə Mesopotamiyanın şimal ərazisi III əsrin sonlarından etibarən tədricən yüksəlməyə başlamış, əsli assuriyalı əyan ailəsinə bağlanan Nəxirvan (نخيرجان) sülaləsinin idarəsi altında olmuş, sasanilərə tabe bu əyan nəslinin malikanələri (dəstkərdi-Ə. A.) Kiçik Zəb ilə Böyük Zəb çayları axarları arasından başlayaraq şimal-şərqə (yəni Azərbaycan torpaqlarının sərhədinə-Ə.A.) doğru geniş əraziləri əhatə etmişdi (15, s. 91-93). Təbərinin məlumatından sezilir ki, Xosrov Ənuşirvan zamanınından da, əvvəlki dövrlərdə bilinməyən səbəblərlə əlaqədar bəzən Azərbaycanla Ərməniyyə və İraqın şimal hissəsinin, yəni sonrakı Cəzirənin maliyyə cəhətdən idarəçiliyi vaxtaşırı olaraq vahid bir təsisat tərəfindən icra edilirmiş (27, II, s. 98). Yaqut Həməvidə də, Nəxircan isimli biri Xosrov Ənuşirvanın maliyyə işləri rəhbəri kimi təqdim edilmişdir (40, V, s. 278). Xilafət dövründə sasanilərdən qalma olan belə təcrübələr tətbiq olunmaqda davam etmişdi. Əbu-l-Abbas Əhməd ibn Yəhya ibn Cabir əl Bəlazuri (vəf.892) Mosuldakı yaşlılarla söhbətlərindən topladığı məlumata görə xəlifə Ömər əl Xəttab zamanında (634-644) Urmiya, Xuvey və Səlmasın xəracı Mosulun xəznəsinə verilirdi (19, s.464). Xilafət ərəfəsində əvvəldən oturuşmuş ənənəyə müvafiq olaraq sasani II Xosrov Pərviz də (591-628) keçmişə riayətlə öz hakimiyyəti dövründəki İraqı idarə etmiş Nəxirvan nümayəndəsinin başına qızıldan kiçik tac qoymuşdu (38, s. 137-138). İraq Hirə ərəb əmirliyinin hökmdarı Ləhmi III Numan ibn Munzir (579-601) sasani II Xosrov Pərvizin əmri ilə zindanda qətl edildikdə, İraq idarəçiliyinin davam etdirilməsi üçün sasani hökmdarı Ləhm deyil, artıq ət-Tayy qəbiləsindən İyas ibn Qəbisəni və Nəxirvan əyan nəslindən birini (Nəxirvanlar ailəsinin İraqın şimal-şərqindəki dəstkərtini nəzərə alaraq-Ə. A.) bu işlə vəzifələndirmişdi (27, II, s. 213). Qadisiyyə döyüşündən sonra Hirəyə qayıtmış Nəxirvan ailəsindən biri, Züheyr ibn əl Hüveyrə ət-Təmiminin rəhbərliyi altındakı ordu birliklərinin hərəkətindən xəbər tutaraq Mədainə doğru yönəlmişdi (28, III, s. 619). Mədain müdafiəsinə rəhbərlik edənlərin arasında Mehran ilə Nəxirvanın adları da mənbələrə düşmüşdür ki, hər ikisi bu işin öhdəsindən gəlməyəcəklərini anlayaraq, körpünü dağıtdırıb daha şərqə doğru çəkilmişdilər (28, III, s. 620). Sasani inzibati bölgüsündə həm Azərbaycan ispahbədliyi, həm də “Cərbi“ adı ilə tanınan, “şimal”kustakına (33, s. 118-119; 41, s. 178) aid ərazilərin cənub-qərbi, aramilərin “Bet Nəhreyn”, ərəblərin “Beynəlnəhreyn”, sasanilərin isə “Xarbaran” adı verdiyi Mesopotamiyanın şimalı, yəni ərəblərin adını Cəzirə qoyduğu şimal-şərqi ilə həmsərhəd idi. Bu sasani kustaklarının hər ikisinin mülki idarəçiliyi həm qərb istiqamətində və həm də Azərbaycanın aid olduğu kustağda Bizans-Sasani müharibələriylə əlaqədar “Taysəfun” üçün mövcudluğunun əvvəlindən daim mürəkkəbliyi və çətinliyi ilə fərqlənmişdir. Belə hal sonrakı Xilafət-Sasani müharibəsi dövründə İraq və Azərbaycanı Sasani imperiyasınn tərkibindən çıxan ilk ərazilər sırasına düşməsi üçün zəmin yaratmış oldu. Xilafət ordularının yürüş ardıcıllığına uyğun olaraq, ərəblərin qurmağa başladıqları hakimiyyətin erkən dövrlərindən etibarən sasani idarəçiliyindən qalma bir çox ənənəvi təcrübələr Azərbaycan, Arran və Ərməniyyənin zaman-zaman İraq Cəzirəsi ilə bərabər vahid inzibati bölgüyə aid edilməsində üzə çıxdı. İraqda Xilafətə qədər dövrün ayrı-ayrı əsrlərində məskunlaşmağı davamlı saxlamış olan müxtəlif ərəb qəbilələri xristianlığı ilə əlaqədar müsəlmanlara ilk əvvəl şiddətli müqavimət göstərmiş (7, I, s. 216), məğlubiyyətlə qarşılaşdıqda isə, Təğlib qəbiləsinin nümunəsində olduğu kimi, Bizansa belə köçüb getməyi gözə almışdılar (29, IV, s. 56). Lakin, bununla yanaşı tədricən aralarında vahid mənşəi əsas almağa başlayaraq xilafət ordularının yürüşlərində iştirak etmiş, bu sıradan islam dininə keçənlər də olmuşdu (35, s. 81-84, 86-90). İraqda baş vermiş Qadisiyyə döyüşündə sasanilərin tərəfində Azərbaycandan toplanmış 80 minlik ordu iştirak etmişdi (2, s. 71). Xilafət ordularının İraqda qələbə ilə bitirdiyi Qadisiyyə və Cəlulə döyüşlərindən sonra 638-ci il Kufə orduqərargah şəhərinin salınması tarixi oldu (12, s. 101). Xilafət ordularının şimal və şərq istiqamətlərindəki yürüşlərində, İraqda əsası qoyulan

Kufə və Bəsrə ordu-qərargah şəhərlərinin əzəli Sasani torpaqlarına və sasanilərin istila etdikləri Azərbaycan, Arran və Ərməniyyə, eləcədə Xorasanın tutulmasında böyük əhəmiyyəti oldu. Kufədə 40000-lik ordu cəmləşmişdi ki, bunun 10000-i Azərbaycanla Reyə ayrılmış (6000-ni Azərbaycana, 4000-ni Reyə) və ordudan hər döyüşçü beləliklə dörd ildən bir hərbə mükəlləf idi (29, IV, s. 246). İzzəddin Əbulhəsən İbn əl Əsir əş-Şeybaninin qeydi üzrə Kufə və Bəsrə salındıqdan sonra ordugah şəhərlərin ətraflarındakı ərazilərə də, hərbi bölüklər yerləşdirilmişdi (19, II, s. 374-375). Kufədəki ordunun sonralar müəyyən hissəsini Mosulda yerləşdirməklə Xilafət əvvəldən Azərbaycan ərazilərinə doğru ediləcək yürüşlərin və ya kəşfiyyat əməliyyatlarının hazırlığını aparmış olurdu (8, II, s. 154). Sasani dövləti dağıldıqdan sonra Xilfətin idarə edilməsində ərəblər ilk dövrlərdə sasanilərdən və bizanslılardan əxz olunan təcrübəylə hərəkət etmək məcburiyyətində qaldılar. İlk olaraq yaradılmış beşlik quruluşdan ibarət inzibati bölgüdə Azərbaycan və Arran, İraqın şimalı olan Cəzirə və Kiçik Asiyanın şərqi ilə birlikdə erkən Xilafətin dördüncü vilayətini təşkil etmişdi ki, birləşdirilmiş vəziyyətdə ümumən Cəzirə vilayəti ismiylə bilinirdi (2, s. 135). Müəyyən müddətdən sonra, Əməvilər zamanına doqquz sayına çatmış vilayətlikdən beş vilayətlik inzibati bölgüsünə qayıdıldı və Azərbaycan, Arran, Kiçik Asiyanın şərqi eləcə də,yenə İraq Cəzirəsi birləşdirilərək sonuncu bölgənin adıyla Xilafətin üçüncü vilayəti kimi tanınmağa başlamışdı (2, s. 136). Əməvilərin hakimiyyəti dövründə tədriclə Azərbaycan istiqamətindəki hərbi əməliyyatların həyata keçirilməsində, İraqın şimalı, yəni Cəzirənin və burada Mosulun əhəmiyyəti önə çıxmağa başladı.Cəzirə ərazisinin əhəmiyyəti Bizansla və eyni zamanda Azərbaycanla həmsərhəd torpaqlara malik olması ilə yanaşı, Bizans-Sasani müharibələri ilə bağlı, həm sasanilərdən, həm də bizanslılardan qalma bir sıra ordu dayaq istehkam və tikililərin yarı sökük halda mövcudluğu ilə önə çıxmışdı.Xilafətin orduları üçün Cəzirədəki bütün hərbi dayaq məntəqələri təmir-bərpa işlərindən sonra həm Bizans və həm də xəzərlərin təhdidi altında olan Azərbaycan şimalı kimi tanınan Arran tərəfi nəzərə alınaraq Bəlazurinin təbirincə Suğuru-l-Cəzəriyyə (19, s. 259) cunduna aid möhkəmlənmə məskənlərinə dönüşdülər. Bəlazuri cundun mahiyyətcə nəyi təcəssüm etməsi məsələsində bitərəf qalmış, sadəcə «ordu məskəni» və ya «bölgənin toplanmış xəracından "əta"-larını alan ordu birləşmələrinin möhkəmlənmə məskəni» anlamı arasında seçim etməmişdir (19, s. 180). Bəlazurinin bildirdiyi üzrə cundların sayı 4 olmuş,sonra xəlifə Yəzid ibn Müaviyə (60\680-64\683) Kinnəsrini Xümsdən ayırıb 5-ci cundu yaratmışdır (20, s. 138). Əməvilər Kufə və Bəsrənin mühümlüyünü unutmayaraq daha çox Cəzirə üzərindən istifadə edilməklə Ərməniyyə, Azərbaycan və Arranda yaranmış gərgin vəziyyətlərin çözümünə yol almağa başlamışdılar. Bəlazurinin verdiyi məlumata görə xəlifə Əbdülməlik ibn Mərvan (685-705) ana tərəfdən ögey qardaşı Məhəmməd ibn Mərvanı Mosul, Cəzirə, Ərməniyyə valisi təyin etmiş olduğundan (22,VI, s. 20) onun təklifi ilə Cəzirəni 692-ci ildə Kinnəsrindən qopararaq müstəqil cunda çevirmiş (19, s. 180), Mosul Cəzirənin mərkəzi kimi daha da genişlənmişdi. Azərbaycan böyük Cəzirə, yəni Cəzirə ilə Mosul və Ərməniyyə vilayətin tərkibində olduğu üçün Məhəmməd ibn Mərvan Ərməniyyənin tabe edilməsindən sonra xəzərlərə qarşı yürüşlərin hazırlığını aparmağa başlamışdı (2, s. 105). Məhəmməd ibn Mərvan 73 (692\93)-cü ildən Mosul, Cəzirə, Ərməniyyə, 79(698)-dan 91(709)-ci ilə kimi 12 illik bir müddətdə isə Azərbaycanın da aid olduğu böyük Cəzirə vilayəti valisi vəzifəsini icra etmiş (21, s. 139-140), bu zaman ərzində Bizans və xəzərlərlə müharibəyə onun əmri altında sərkərdəlik etmiş Məsləmə ibn Əbdülməlik artıq qardaşı xəlifə I Vəlid ibn Əbdülməlik (86\705-96\715) tərəfindən 91(709)-ci ildə Cəzirə, Ərməniyyə və Azərbaycan valisi təyin edilmişdi (23, s. 303). Cəzirə, Ərməniyyə və Azərbaycan üçlüyünün vahid vilayət kimi mövcudluğu yalnız xəlifə II Yəzid (101\720-104\724) və Hişam ibn Əbdülməlik (105\724-125\743) zamanından etibarən fasilələrlə müəyyən dəyişikliyə uğramış, sonra yenə ilkin quruluşuna qaytarılmış və bu inzibati ənənə uzun müddət davam etdirilmişdi. Cəzirə, Ərməniyyə və Azərbaycan valiliyinə Məsləmə ikinci dəfə digər qardaşı xəlifə Hişam tərəfindən 107(725)-ci ildə gətirildi (19, s. 290; 23, s. 337). Qısa bir müddətdən sonra Məsləmə digər bölgələrdəki fəaliyyəti ilə əlaqədar 729-cu ildə vəzifədən

uzaqlaşdırılmış olsa belə (2, s. 108) 112(730\31)-ci ildə Məsləmə Hişamın əmri ilə yenidən tutduğu mövqeyə qaytarılmışdı (2, s.109). Məsləmənin xəzərlərlə qalibiyyətli döyüşlərindən və nəticələrindən məmnun qalmayan əmisi oğlu Mərvan ibn Məhəmmədin xəlifəyə çatdırmış olduğu xəbər və şaiyələr nəticəsində 114(732\3)-cü ildə Mərvan Cəzirə, Ərməniyyə və Azəbaycan üçlüyünə vali təyin edilmişdi (23, s. 345). Mərvanın xəzərlər üzərinə etmiş olduğu yürüşlər həm Dəryal, həm də Dərbənd keçidləri vasitəsi ilə həyata keçirildiyindən böyük qələbəylə nəticələnmiş və Abbasilərin hakimiyyətinə qədər olan 20 il ərzində xəzərlərin hücumlarında bir qədər səngimə yaranmışdı. Mərvan xəlifə olduğu 127(744)-ci ilə kimi böyük Cəzirə valiliyi məqamını əlində saxlamışdı. Mənbələr üzrə Əməvilərin inzibati tədbirlərinə ümumən diqqət yetirdikdə Cəzirə adlanmış böyük vilayətin tərkibinə Ərməniyyə və Azərbaycanın daxil edilməsi təcrübəsinin əvvəlki dövrdən mənimsənmiş olduğu üzə çıxır. Raşidi xəlifələri dövründən fərqli olaraq Əməvilərdə, bu vilayətə valilərin təyini məsələsində ailədən kənara çıxılmasına yalnız qısa müddətə və məcburi hallarla əlaqədar yol verilmişdi. Erkən Xilafətin Cəzirə, Ərməniyyə və Azərbaycanı bir vilayətdə birləşdiriməsi tədbirinə, Bizans-xəzər cəbhələrinin canlı qüvvə və həm də orduların maliyyə vəsaiti təminatı üçün mühüm əhəmiyyəti ilə əlaqədar, müəyyən təbəddülatla Abbasilər dönəmində də davam verilmişdir. Abbasilərin ilk xəlifəsi Əbulabbas əs-Səffah hakimiyyətə gəlməsiylə 132\750-ci ildə qardaşı Əbucəfər Mənsuru Cəzirə, Ərməniyyə və Azəbaycandan ibarət vilayətə vali təyin etdi (23, s. 414). Abbasilər Əməvilərdən gələn təcrübəyə riayət etmiş və Xilafətin ucqarlarına vəliəhdləri, mürəkkəb vəziyyətlər zamanı ən seçkin, bəzən isə ehtiyatlandıqları sərkərdələri, mərkəzə yaxın bölgələrə isə fəaliyyəti ilə özünü dəfələrlə doğrultmuş digərlərini vali olaraq göndərmişdilər. Əbucəfər Mənsurun birləşdirilmiş Cəzirə, Ərməniyyə və Azərbaycan valiliyi bu üçlü vilayətin parçalanmasıyla bitdi. Cəzirə müstəqil bir vilayətə çevrildi. Xəlifə Mehdi (158\775-169\785) hakimiyyətində vəliəhd Harun 163\779-cü ildə Azərbaycan və Ərməniyyəyə vali təyin edilmiş oldu (30,VIII,s.148). Mənbələr üzrə alınan qənaətə görə Abbasilər dövründə Azərbaycana təxminən 20, Ərməniyyəyə isə 30 vali təyin edilmiş, bu sırada vəliəhdlərdən Mənsur və Harun, Rəbiyə qəbilələr birləşməsinə aid Şeybanilərin Məzyədi qolu rəisi Yəzid ibn Məzyəd və ailəsindən Əsəd, Xalid ibn Yəzid, Məhəmməd ibn Xalid (2, s. 187-191), türk əsilli sərkərdələrdən Əfşin Heydər ibn Kavus (31, IX, s.102) kimi şəxslər olmuşdur. Məzyədilərdən Məhəmməd ibn Xalid vaxtaşırı olaraq həm Azərbaycan, Ərməniyyə və Arran, həm də Cəzirə valililiyi ilə fasilələrlə mükəlləf edilmişdi (2, s.195). Valilərdən Yəzid ibn Məzyədin hakimiyyətində Cəzirədəki rəbiyəli həmqəbilələrindən daim alınmış böyük dəstək, kəsilməmiş sıx əlaqələr, eləcə də onun ərəbləri vilayət ərazisində məskunlaşdırma siyasəti Ərməniyyə, Arran və Azərbaycanın idarə edilməsində mühüm əhəmiyyətə malik olmuşdu (2, s. 186-193). Xilafətin IX-XII əsrlər tarixində Azərbaycanla İraq ərazilərində yaranmış əvvəlcə yarmüstəqil, sonra isə müstəqil dövlətlərin mövcudiyyəti ərzində, hər iki ölkənin bir-biri ilə bağlılığ telləri müxtəlif sahələrə yayılmaqla fərqli siyasi münasibətlər fonunda, daha çox eyni dövlət daxilində birləşməklə həyatda qalmış, bu vahid siyasi məcrra yalnız 1639-cu il Qəsri-Şirin müqaviləsi ilə bölünmüş və Azərbaycanla İraq bir-birindən ayrılmışdır.

## Ədəbiyyat siyahısı


1. Ağayev R. Ərəb xilafəti dövründə Azərbaycan əhalisi. Bakı: Turxan NPB 2017. 344 s.
2. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr 1989. 336 s. (kiril əlif.)
3. Vəlixanlı N. M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.
4. M. Ghodrat-Dizaji. Administrative Geography of the early sasanian period: The Case of Adurbadagan.jornal İran. Vol 45 (2007) pp. 87-93.
5. Pliny. Natural History.by H.Rackham M.A.Volume II, Libri III-VII. London: 1961. 664 s.
6. Алиев.И. Очерк истории Атропатены. Баку: Азернешр 1989.160 s.
7. Большаков О. Г. История Халифата. I-IV,т I, Москва: 2000, 312 s.

8. Большаков О. Г. История Халифата. I-IV, т II, Москва: 2002,294 s.
9. Буниятов. З.М. Обзор источников по истории Азербайджана. (источники арабские), Баку: Элм 1964. 36 s.
10. Велиханова Н. М. Ибн Хордадбех. Книга путей и стран. Баку:Элм 1986. 428 s.
11. Колесников А. И. Иран в начале VII века. Палестинский сборник. Вып. 22\85, Ленинград :1970, s 5-144.
12. Колесников А. И. Завоевание Ирана Арабами. Издание Наука. Москва: 1982. 269 s.
13. Мамедова Ф. Дж. Политическая история и историческая география Кавказской Албании. Баку: Элм 1986. 284 s.
14. Мамедова Ф. Дж. Кавказская Албания и албанцы. Баку: 2005.798 s.
15. Мишин Д. Е. Хосров I Ануширван (531-579) его эпоха и его жизнеописание и поучение в истории Мискавейха. Москва: ИВ РАН 2014, 696 s.
16. Надиров И. И. Хатра. Арабы между Парфией и Римом. СПб: 2009.480 s.
17. Пигулевская Н.В. Города Ирана в раннем средневековье. М-Л: 1956.366 s.
18. Пигулевская Н.В. Культура сирийцев в средние века. Москва: 1979.265 s.

Ərəb dilində

19. ابن الاثير ابو الحسن علي بن ابو الكرم محمد بن محمد بن عبد الكريم الشيباني.الكامل في التاريخ ,اثنا عشر جزءا, دار الكتب العلمية ,بيروت 1987الجزء الثاني,503ص

20 البلاذري احمد بن يحيي بن جابر .فتوح البلدان موسسةالمعارف,بيروت1987ص768

21 البلاذري احمد بن يحيي بن جابر 480 كتاب فتوح البلدان,طبع بمطبعة الموسوعات بشارع,بمصر 1319, ص

22 . البلاذري احمد بن يحيي بن جابر ص انسا ب الاشراف ,الجزء السادس ,دار الفكر,بيروت 1996, 338

23 .خليفة بن خياط العصفري.تاريخ خليفة بن خياط.الرياض 1305-1985, 628ص.

24. الطبري ابو جعفر محمد بن جرير.تاريخ الامم والملوك,بالمطبعة الحسينيةالمصرية,اثنا عشر جزءا,الجزء الاول,295ص
.

25 الطبري ابو جعفر محمد بن جرير.تاريخ الامم والملوك,بالمطبعة الحسينيةالمصرية,الجزء الرابع,القاهرة, 267ص

26 الطبري ابو جعفر محمد بن جرير.تاريخ الرسل و الملوك,اثنا عشرجزءا,الجزء الاول,القاهرة,دار المعارف 1967, ص 37 6

27 الطبري ابو جعفر محمد بن جرير.تاريخ الرسل والملوك,اثنا عشر جزءا,الجزء الثاني القاهرة,دار المعارف 1968,

28. الطبري ابو جعفر محمد بن جرير.تاريخ الرسل والملوك,اثنا عشر جزءا,الجزء الثالث,القاهرة دار المعارف 1969, 632ص

29 الطبري ابو جعفر محمد بن جرير.تاريخ الرسل والملوك,اثنا عشر جزءا,الجز الرابع,القاهرة,دار المعارف,1970,

30. الطبري ابو جعفرمحمد بن جرير.تاريخ الرسل والملوك,اثنا عشرجزءا,الجزء الثامن القاهرة,دار المعارف 1976,

31 التاسع 1975, 687ص
.

32 ابن عساكر علي بن حسن بن هبة الله .تاريخ مدينة دمشق.بيروت,دار الفكر1997,الجزء الثامن والثلاثون 462ص,

33 ابي القاسم عبيدالله بن عبدالله ابن خردادبه.المسالك والممالك.ليدن بمطب بريل 1889م.340ص.

34 ابي محمد عبد الله بن مسلم بن قتيبة الدينوري.عيون الاخبار,دار كتب العلمية الجزء الرابع,بيروت 1986 .

35 محمد ضيف الله البطاينه,العلاقة بين نصاري العرب وحركتة الفتح الاسلامي في الجزيرة العربية والشام و العراق.جامية اليرموك,دائرة العلوم الانسانية,الاردن,ص75.

وحب بن منبه .كتاب التيجان فيملوك حمير صنعاء
1979, 506ص 39
414ص
البلدان.بيروت1977.المجلد 461 .40
شهاب الدين ابي عبدالله معجم الخاميس. دارصادر.ص.
ياقوت الحموي.

اليعقوبي احمد بن ابو يعقوب بن جعفر بن وهب ابن
واضح.تاريخ اليعقوبي,الجزء الاول دار الصادر
41.

ابي عمر يوسف بن عبد البر الانديلسي,الاستيعاب
في معرفت الاصحاب,دار الجيل,بيروت 1992,الجزء
الاول,ص., 36 .

محمد بن سعد بن منيع الزهري.كتاب الطبقات
الكبير.احد عشر جزءا,الناشر مكتبة الخانجي
بقاهرة2001,الجزء الثامن,37

567ص

ابوحنيفه احمد بن داود الدينوري الاخبارالطوال,
القاهرة 1959
503ص

38

**Summary**

**Aydin Ali-zade**

**On Azerbaijani-Iraqi connectivity during the early Arab Caliphate**

The geographical area where the first information about the ancient states formed on the territory of Azerbaijan and their close ties entered history was Mesopotamia ,that is, Iraq of the Middle Ages and the present day. Mesopotamia subsequent Iraq was the “Wetnahrain” of the Arameans and was also the “Beinalnahrain” of the Arabs and finally the Sasanian “Harbaran” adopted from the Parthians. For centuries, the north of Iraq, bearing the name Jazira, was, together with Azerbaijan, a single integral part of the Arab Caliphate, wich on the eastern side of the state preserved the Sasanian traditions of the admnistrative management.

***Keywords:*** *Azerbaijan, Parthia, Sasanian, Mesopotamia, Wetnahrain, Beinalnahrain, Arab Caliphate, Iraq, Jazira.*

**Резюме**

**Айдын Али-заде**

**О азербайджано-иракской связанности в ранний период Арабского Халифата**

Географической областью где в историю вошли первые сведения о государствах образовавщихся на территории Азербайджана и их тесных связях являлась древняя Месопотамия, то есть Ирак средневековья и наших дней. Месопотамия-последующем Ирак, была «Бетнахрейн»-арамеев а также «Бейналнахрейн»-ом арабов и наконец сасанидским «Харбаран»- ом приемственным от парфян. На протяжении веков север Ирака носящее название Джазира являлась вместе с Азербайджаном единой составной частью Арабского Халифата которая на восточной части государства долго сохранял сасанидские административные традиции управления.

***Ключевые слова:*** *Азербайджан, Парфия, Сасаниды, Месопотамия, Бетнахрейн, Бейналнахрейн, Арабский Халифат, Ирак, Джазира.*